# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 291** **Bakı şəhəri, 5 oktyabr 2021-ci il**

***"Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 iyul tarixli 253 nömrəli Qərarının ləğv edilməsi barədə***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 17 iyul tarixli 253 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 7, maddə 983) ləğv edilsin.

**2.** Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə tövsiyə olunsun ki, bu Qərara uyğun olaraq Naxçıvan Muxtar Respublikası prokurorluq orqanlarının prokurorluq işçilərinin aylıq vəzifə maaşına əlavəni müəyyən edən müvafiq Qərarını ləğv etsin.

**3.** Bu Qərarın 1-ci hissəsi 2021-ci il 7 may tarixindən tətbiq edilir.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının Baş naziri***